## 8. Hər addımda igidlik

Ulduz Qasım *"Qarabağda qiyamət"* romanında torpaqlarımızı düşməndən azad etmək üçün insanların total birliyini, yəni istisnasız olaraq hər kəsin psixoloji və hərbi səfərbərliyini qürur hissi ilə təsvir edir. O heç bir hərbi hazırlıq yolu keçməyən qızın inadla cəbhəyə can atmasını da, hətta döyüş yaşı ötmüş, hərbi xidmətə yararlı olmayan adamların da can atımını, döyüşdə iştirak etmək istəklərini bizim də şahidi olduğumuz hadisələrin fonunda reallığı göstərə biləcək cizgilərlə təqdim edir. Amma hər kəsə məlumdur ki, bu müharibədə də övladlarını cəbhədən yayındırmaq istəyənlər, hətta imkanı olduğu halda müharibədə, açıq savaşda olan əsgərlərimizə heç bir yardım göstərməyənlər də az olmadı. Doğrudur, "dəmir yumruq"u təmin edən qüvvələrin fonunda belələri çox az idi. Onlar nə arxada, nə də öndə xalqın ümumi işinə yaramasalar da, onları ittiham etməyə lüzum qalmadı. Çünki onlar artıq xalqın gözü qarşısında lənətlənmişdilər. Onların mövcudluğunun, demək olar ki, əhəmiyyəti yox idi. Ancaq buna baxmayaraq yazıçı mənəvi mühitimizə yad olan belələrini də ittiham edir, onlara, demək olar ki, son sözünü açıq və çılpaqlığı ilə deyir: *"Dilləri ağızlarına sığışmır car çəkib bu mövzuda danışanda. Dəbdəbəli kostyumlar geyinib, əllərində ağ əlcəklər kürsülərdə oturanlar, niyə aldadırsınız hamını? Niyə dilinizi udmusunuz? Niyə bu qədər ikiüzlüsünüz, yalançısınız? Sizin körpələrinizi, həyat yoldaşlarınızı, valideynlərinizi gecə yatdığı yerdə belə öldürsəydilər, evlərinizi başınıza uçursaydılar yenə susarmıdınız? Onda da içiniz ağrımazdı, onda da bu barbarların tərəfini saxlayardınızmı? Başınızı aşağı salıb heç nə olmamış kimi hərəkət edərdiniz? Nə qədər də mənliksizsiniz və bütün dünyadan qanun tələb edəndə heç utanmırsınız? Heç özünüz-özünüzə suallar vermirsiniz? Heç özünüz-özünüzə demirsiniz ki, İlahi, bizdə ürək deyilən bir şey yoxdur? İkili prinsiplər yeridirik bu dünyada, ar olsun bizə!Doğrudan da, ar olsun! Ar olsun həqiqəti görməyənlərə, düzü qoyub əyrini müdafiə edənlərə, günahsız körpələrin ölümlərinə göz yumanlara, günahsızların ölümünə gülümsəyənələrə. Qan içənlərin tərəfində olanlarla, bilə-bilə yalanları müdafiə edənlərə! Ar olsun! Bəs siz heç bircə dəfə xəyalınıza gətirməzdiniz ki, belə xüsusiyyətlər sizin özünüzü gözdən salır, kimlərdənsə sizə qarşı nifrət oyadır? Böyük olsun, kiçik olsun, fərqi yoxdur. Bunları bir fikirləşin. Bizim böyüklər demişkən papağınızı qoyun qabağınıza düşünün, vaxt gələr lazımınız olar..."*. Yazıçını bu yaramaz ünsürləri ittiham etməyə vadar edən nədir? Çünki yazıçı yaxşı başa düşür ki, cəmiyyətin xəstə nahiyələri sözlə sağalmalıdır. İctimai qınaq belə məqamlarda xüsusi əhəmiyyət kəsb edir. Axı, nə qədər ki, biz Azərbaycan torpaqlarına diş qıcayan xain qonşularla əhatə olunmuşuq, demək, hər anımızda ehtiyatlı olmalı, gələcək mübarizələrimiz zamanı yeni səhvlərə yol verməməliyik. Əsas odur ki, biz öz həqiqətlərimizi dünyaya çatdıra bilək. Göz görəti yaxın qonşumuz, qardaş dediyimiz İran Azərbaycan mənafelərini erməni qardaşlığına satdı. Hələ onlar bundan sonra da Azərbaycan mənafeyinə zərbə vuran əməllərini davam etdirmək istəyindədirlər.

Azərbaycan 30 il dəhşətli işğala məruz qaldı. Bir dəfə də olsun, İran erməni faşizminə qarşı öz mövqeyini bildirmədi. Bunun özü göstərir ki, İran Azərbaycanın dirçəlməsini qətiyyən istəmir. Ancaq Ulduz Qasımın maraqlı bir nüansa diqqət yetirməsi bizi müqayisələr aparmağa sövq edir. Azərbaycan mədəniyyətini, musiqisini sevən Cefri adlı gənc bizim alətlərimizdə ifa etməyi bacarır. O istedadlı uşaqlar haqqında sənədli film çəkir. Səsinə valeh olduğu Nazim adlı bir uşağın filmdə obrazını yaradır. Aradan illər keçəndən sonra həmin istedadlı uşaqları axtararkən Nazimi də tapır. Məlum olur ki, bu uşaqların düçar olduğu həyat, ağır yaşayış tərzi qətiyyən imkan verməyib ki, onlar istedadlarını inkişaf etdirsinlər. Təmayülləri üzrə təhsil alsınlar.

Burada həmin Nazimin düşüncələrini yazıçı ürək göynədən notlarla təqdim edir: "Bilmirəm, o torpaqsız oxuya bilmirəm. Mənə elə gəlir ki, Vətənim azad olmasa, heç zaman oxumayacam. Mənim ilham mənbəyim Qarabağdadır. Onsuz nəyimə lazımdı ad, san, şöhrət. Şanım da, şöhrətim də orada qalıb. Düyünlənib bütün sözlər, sanki boğazımda". Bu əhalinin bütövlükdə işğal ömrü yaşamış varlığına köçkünlüyün ağrıacıları hopmuş bir gəncin düşüncələridir. İşğalın ilk illərində o yeniyetmə də deyildi, uşaq idi. Amma Cefri onu ikinci axtarıb tapanda o artıq kifayət qədər böyümüşdü və torpaqları azad etmək məqsədi ilə döyüşə hazırlaşırdı.

Ulduz Qasım sözün həqiqi mənasında, öz romanında Qarabağda qiyamətin həm coğrafı mahiyyətini, həm də mənəvi mühitini göstərir. Onu da deyim ki, Ulduz Qasım Cəbrayılın Araz qırağı kəndində doğulub böyüyüb. Hələ üstəlik ali təhsil alandan sonra heç bu yerlərdə yaşamaq imkanı da olmayıb. Köçüb Rusiyaya gedib. Sonralar isə Qarabağ işğal olunub. Əslində Qarabağın coğrafiyasını, relyefini göstərmək Ulduz Qasım üçün çətin olmalı idi. *Ümidlərini itirən düşmən müdafiə olunmağa çalışsa da, Azərbaycan əsgərlərinin qabağında dayana bilmirdi. Xeyli canlı qüvvə itirən ermənilərin ordularının çox hissəsini xaricdən gətirilənlər və yaşlılar təşkil edirdi. Ona görə də yaxşı bilirdilər ki, tezliklə Qarabağ öz sahiblərinə qayıdacaq. Ruhdan düşən düşmənlər gizlənməyə çalışırdılar. Vaxt qazanmaq və beləliklə onlara göndəriləcək canlı qüvvəni gözləyirdilər. Lakin müzəffər Azərbaycan ordusu dayana bilməzdi. Bütün əsgərlərin bir amalı vardı: torpaqlarımızı o barbarlardan azad etmək. Taborun cəsur komandirlərindən olan Şahgəldi Atalızadə və bütün döyüşçülər Xocavəndin Müştağlar və Çanaqçılar kəndlərində qəhrəmancasına vuruşdular. İki şəhid vermələrinə baxmayaraq ermənilərin, demək olar ki, bu ərazidəki bütün döyüşçülərini məhv etdilər. Çanaqçılar kəndinin qurtarcağında qazılan səngərə girən komandir, doğrudan da, düşmənin sonuncusunu da məhv etdiklərinə əmin olmaq istəyirdi: "Bunların hiyləsindən bircə özləri baş çıxarardar. Qoy bir də yoxlayaq buraları. Uşaqları çox yorulublar". Bir az irəliləyən Şahgəldi birdən dayandı. İrəlidə səngərin döngəsi onun içində şübhə yaratdı. Fikirləşdi ki, orda gizlənən ola bilər. Səssiz dayanan baş leytenant haqlıymış. O, düşmənin danışığını eşitdi".* Hiss olunur ki, gərgin savaş olacaq. Ancaq əsgərlər bir an da olsun, varlıqlarından tərəddüd keçirmirlər. Onlar üçün hər anın dəyəri var. Çünki ötən hər an Azərbaycan əsgəri irəliləyir. Düşmən isə itki verərək geri çəkilir. Yəni torpaqlarımız azad olunur. Həmin istiqamətdə Şahbelə hesab edirdilər ki, bu ərazilərdə Azərbaycan ordusuna qarşı müqavimət göstərə biləcəklər. Güclü müdafiə xətti yaratmışdılar. Bu, onların əfsanələşdirdiyi Ohanyan xəttinin bir hissəsi idi. Burada yeri gəlmişkən, açıq döyüşdə həlak olan Məzdək Əlioğlu haqqında da bir neçə kəlmə danışmaq istəyirəm. Məzdəkgilin dəstəsi düşmənin içərisinə yerimişdi, düşmənə zərbələr vurub onun əsas qüvvələrini öz üzərlərinə yönəltmişdilər. Bu bir döyüş taktikası idi. Digər tərəfdə Azərbaycan əsgərləri Şuşaya istiqamət almışdılar.

Ermənilərin güclü təzyiqinə baxmayaraq, Məzdəkgilin dəstəsi hünərlə vuruşurdu. O, ali təhsilli tarix müəllimi idi. Magistratura bitirmişdi, gələcəkdə elmi tədqiqatlar aparmağı, Qarabağın tarixi ilə bağlı tədqiqat işi yazmağı düşünürdü. Ancaq o elm sahəsində göstərə biləcəyi qəhrəmanlığı Qarabağ cəbhəsində birbaşa döyüş xəttində əsgər kimi göstərdi.

O döyüşdə düşmən çox böyük itki, tələfat verdi. Amma Məzdəkgilin səngərini də minomyotla vurdular. Beləliklə, düşmənin mühasirədə *"təslim olun"* tələbinə tabe olmayan Məzdək öz səngərində tutduğu mövqedə qəhrəmanlıqla həlak oldu. O, ailənin yeganə oğul övladı idi. Onun cəsədini döyüş xəttindən oğlum Araz gətirməyə getmişdi. Həlak olanlar arasında Məzdəkin də cəsədini tapdılar. Arazgil soruşmuşdu ki, bəlkə bu, Məzdək deyil bizim axtardığımız? Komandir demişdi ki, Azərbaycan ordusunda bircə Məzdək var, o da budur. Çox igid döyüşçü idi. Bu epizodu ona görə bu yazıya daxil edirəm ki, Ulduz Qasım nə qədər

# VII. "QARABAĞDA QİYAMƏT"İN SONU

Amma ayrı-ayrı hissələri oxuduqca onun nə qədər ətraf aləmlə yaxından tanış olduğunu da müşahidə etmək olur. Görünür, o əsəri yazmağı başlayarkən keçmiş müşahidələrini, bilgilərini xatırlamaqla bərabər, yeni məlumatlarla da düşüncələrini zənginləşdirib. Məsələn, Hadrutun işğaldan azad olunması üçün döyüşçülər Cəbrayıl ərazisindən iki istiqamətə ayrılır. Bir istiqmət Araz boyu, Xudafərin üstü və üzü Zəngilana doğru, digər qüvvələr isə Cəbrayıldan üzü şimal qərbə yəni Hadruta tərəf istiqamət götürür. Bu zaman hərbiçilərimizin döyüşə-döyüşə keçdiyi yerləri son dərəcə dəqiqliklə göstərir. Məlumdur ki, Cəbrayıldan Hadruta doğru hərəkət etmək üçün gərək Papıçərəkən, Daşkəsən, Balyand, Qaracallı, Süleymanlı, Qışlaq düşməndən azad olunmalı idi. Əsgərlərimiz bu döyüş tapşırıqlarını məharətlə yerinə yetirirlər. Düşmənə ağır tələfat verir, onların qüvvələrini əzir, məcbur edirlər ki, silah-sursatlarını atıb qaçsınlar. Döyüş meydanında düşmənin çoxlu yaralıları və öldürülmüş əsgərlərinin cəsədləri qalmışdı. Nəhayət, Azərbaycan əsgəri təpənin lap zirvəsində olan Quşçular kəndinə qalxır. Döyüşə-döyüşə, mərdliklə savaşaraq düşməni geriyə atır. Sur kəndindən Ağyola çıxır, aşırımı adlayırlar. Beləliklə, Azərbaycan əsgəri hiss edir ki, düşmənin müqaviməti qırılıb. Burada baş leytenant Şahgəldinin rəhbərlik etdiyi taborun igid əsgərləri yazıçının tərənnüm dolu təsvirləri ilə mükafatlandırılır. Bəli, bu döyüşçülər artıq Hadrut, Şuşa yoluna çıxmaqdadırlar. Xocavəndin kəndləri bir-birinin ardınca Azərbaycan əsgərinin nəzarətinə keçir: *"Baş leytenant Şahgəldinin başçılıq etdiyi tabor Hadrutun bir neçə yaşayış məntəqlərini azad etdikdən sonra Xocavənd istiqamətində irəliləməyə başladı. Qələbəyə* gəldi Atalızadənin taboru son dərəcə çətin əlverişsiz coğrafi şəraitə baxmayaraq düşməni güclü tələfata məruz qoyur. Şahgəldi Atalızadənin rəhbərlik etdiyi döyüşçülər arasında Sevər adlı gəncin və digər qəhrəmanların adları çəkilir.

Müəllif hadisələrin gedişatını tələsdirmir və demək olar ki, hər gündəlik müharibə xronikasını dəqiqliklə izləyir, yol boyu döyüşçülərin haralardan keçdiklərini nəzarətdə saxlayır.

Araz boyu istiqamətində də ciddi irəliləyişlər təsvirdən kənarda qalmır. Qumlaq, Mahmudlu, Soltanlı, Hasanlı, Maşanlı, Alı-keyxalı, Xələfli stansiyası və nəhayət, Xudafərin Azərbaycan əsgərinin öz xalqına çatdırdığı azadlıq məlumatı idi. Hər işğaldan azad olunan məntəqədə Azərbaycan bayrağı dalğalanır. Şübhəsiz, bu məqamları yazmaq müəllif üçün də xüsusilə fərəhlidir. Sənanın, Əlizamanın, Turalın, Rəhmanın və digər qəhrəmanların döyüş yolu əslində tarixin unutmayacağı səhnələrdir. Ayazın, Nazimin şəhid olmağı... Natiqin tapşırığı pozaraq döyüş dostlarının kömək, yardım üçün getməsi və onun ölümlə üzbəüz gəlməsi göstərir ki, əsgər üçün həyatı ideal deyil, vətəndir idealı. Natiq sözün həqiqi mənasında bir-birinin arxasınca qəhrəmanlıq səhnələrinin yaradıcısı olur. Teyfurun igidliyi yaddan çıxan deyil. Beləliklə, müəllif hər bir əsgərin xronikadan keçən adını təsvirləri ilə canlandıra bilir. Oxucunun yaddaşında bu adlar ayrıca iz qoyur. Yaxud Qubadlını azad edən Azərbaycan əsgəri Laçının dağlıq ərazisində inamla irəliləyir. Az keçmir ki, düşmən bu mövqeləri də tezliklə verəcəyini gözünün altına alır. Bu yerlərdə Türkangilin, Zahirgilin dəstələrinin igidliyi əsil əfsanə kimi verilir.

Məlumdur ki, Füzuli istiqamətini son dərəcə möhkəmləndirmişdir. Onlar böyük cəfakeşliklə müharibə səhnələrini ardıcıllıqla versə də, müharibə prosesini nə qədər dəqiq göstərsə də, yenə yazılmalı hələ nə qədər igidlərimiz, səhnələr var.

Teyfurun, Rəhmanın, Natiqin döyüş səhnələri sözün həqiqi mənasında, qəlb göynədən hisslərlə müşayiət olunur. Bütün hallarda əsgərlərin varlığından qaynayıb-daşırdı. Nə olursa, olsun, torpaqlar azad olunmalıdı: *"Rəhman dostunun fikirlərinin uzaqlarda olduğunu görürdü. Bilirdi ki, yəqin, yadına valideynləri düşüb. Ona görə onu xəyallardan ayırmırdı. Natiq hərdən də mahnılar oxuyurdu. Ən çox da Qarabağa həsr olunmuş mahnıları. Səsi də pis deyildi, hətta döyüşlərdən itkisiz çıxanda "Qarabağ şikəstəsi"ni oxuyurdu. Zarafat deyil ki, əsl qarabağlıydı bu qəhrəman oğlan. Evdə olanda anası həmişə ona səndən yaxşı xanəndə olar deyirdi. Lakin oğlanın xoşu gəlmirdi, nədənsə bu söhbət. Mən hamamda-zadda ancaq oxuya bilərəm, ay ana, - deyirdi. Cəsarətim çatmaz bu addımı atmağa, gülünc olaram el arasında. Evdə-zadda elə-belə mızıldanıram, sən də elə bilirsən oğlun müğənni-zaddı. Mənimki hamamda oxuyanların misalı kimidir".* Azərbaycan əsgərinin bütün məqamlarda düşüncələri döyüş üstə köklənir. Hətta muğam da oxuyanda, mahnı da ifa edəndə onlar düşmənə səfərbər olan ruhlarının gücünü göstərirdilər. Xüsusilə Azərbaycan əsgəri Xocalıda xalqımızın başına gətirilən müsibətləri yada salır və düşmənə nifrət hisslərini gizlətmirdilər. Ramazanın, Röyalın, Nəbinin igidlikləri haqqında yazılanlar təkcə bu gün üçün deyil, Azərbaycan əsgərinin qəhrəmanlığını tərənnüm edən əbədi yaddaş səhifələridir.

***31.10.2022***

## 9. Unudulmaz anların oğulları

Artıq dəfələrlə qeyd etmişəm ki, Ulduz Qasımın "Qarabağda qiyamət" romanının bütün səhifələri həyatın reallıqlarının, başqa sözlə, 44 günlük savaşın real xronikasıdır. Bu əsərdə yazıçı üslubuna uyğun bədii təsvirlərdən demək olar ki, yan keçmiş, hadisələrin sürətinə uyğun yazı yolu seçmişdir. Ümumiyyətlə, dünya tarixində sürətli müharibələr olur. Tərəflər aralarındakı ziddiyyəti güc hesabına həll etməklə qısa müddətə müharibəni başa vurublar. Amma II Qarabağ savaşının 44 günlük müharibəsi, ümumiyyətlə, savaşlar tarixinin nadir səhifələrindəndir. Bu savaşda Azərbaycan ordusunun sarsıntısı, itkilərin yaratdığı çaşqınlıq, hətta düşmənin arxa cəbhədə yaratmağa çalışdığı psixoloji gərginlik dəmir yumruğun gücünə təsir göstərmədi. Əhali o qədər dərəcədə mənən səfərbər olmuşdu ki, düşmənin hər hansı bir addımının istər arxa cəbhə təxribatlarında, istərsə də ön cəbhə savaşlarında nəyə hesablandığı yerindəcə məlum olurdu.

Onu da artıq qeyd etmişəm ki, əsər boyu hadisələr konkret olaraq hansısa bir obrazın üzərində qurulmur. Dəyişən müharibə səhnələri bir-birini əvəz edən qəhrəmanların meydana çıxmasına şərait yaradır. Natiqin, Ramazanın, Teyfur Rüstəmovun, Sənanın, Səidin, Səbuhinin, Anarın... adları yada düşən, düşməyən qəhrəmanların hər biri üçün bir qarış Qarabağ torpağı canlarından daha qiymətlidir.

"Qarabağda qiyamət" romanında Azərbaycan həkimlərinin də igidliyi, cəsurluğu unudulmur. Onların Azərbaycan əsgərlərinə göstərdikləri qayğı, hər bir əsgərin həyatını xilas etmək naminə fədakarlıqla çalışmaları göstərir ki, qələbə sevinclərini yaşamaq üçün hər kəs əlindən gələni əsirgəməyib. Əsərdə bir neçə dəfə ayrı-ayrı həkimlərin adlarına rast gəlirik. Əhməd həkimin, Rafiq həkimin və digərlərinin. Onların təkcə tibbi səriştəsi, həkimlik bacarığı ön plana çəkilmir, həm də onların həkim humanistliyi, öz peşələrinə vicdani münasibətləri, bir sözlə, insanpərvərlikləri bu şəfalı əl sahiblərinin kimliklərini yaddaşımızda əbədiləşdirir.

Onu da deyim ki, "Qarabağda qiyamət" romanını oxuduqca mənim də sonsuz nigarançılıqla izlədiyim döyüş yerlərindən aldığım məlumatlar məndən asılı olmayaraq yaddaşımda canlanır. Təcili yardım həkimi Rövşən Hüseynoğlunun cəbhənin ən gərgin yerlərinə cəsarətlə daxil olaraq yaralıları təxliyə etməsi, ölümün qarşısını almaq üçün bütün imkanlardan bacarıqla yararlanması göstərir ki, bu qələbədə həkimlərin də kifayət qədər pay var. Cəbrayıl, Zəngilan, Füzuli ərazilərindən yaralıları təxliyə edərkən təcili yardım maşınının bombalanması, atəşlərə məruz qalması həkim Rövşən Hüseynoğlunun iradəsinə təsir göstərə bilmədi. O, axıra qədər öz vəzifəsini icra etdi. Yaxud Suqovuşan, Murovdağ, Kəlbəcər istiqamətində həkim-cərrah Mehman Sabiroğlunun fədakarlığı neçə-neçə qəhrəman Azərbaycan əsgərinin ölümündən bir addımlığından həyata qaytarılmasına səbəb oldu. Mehman Sabiroğlu müharibədən əvvəl Gəncə qospitalında idi. Elə burada da ağır yaralıları əməliyyat edər, əsgərlərimizin həyata qayıtmasına yardımçı olardı. Amma o öz yerinə birbaşa cəbhədə görürdük. Təkidlə ön cəbhəyə, güllələrin yağış kimi yağdığı yerlərə can atırdı. Əsgərlər onu xilaskar mələk adlandırırdılar. Onu da qeyd edim ki, Azərbaycan ordusunun Ali Baş Komandanı, Prezident İlham Əliyevin sərəncamı ilə Rövşən Hüseynoğlu, Mehman Sabiroğlu kimi həkimlərimiz də qəhrəmanlıqlarına görə orden-medallarla təltif olunublar. Bütün bunları xatırlatmaqda məqsədim odur ki, ermənilərlə qonşuluğumuz taleyimizə mənfur toplumla düşmənçilik ovqatında yaşamaq qismət edib. Əlbəttə, biz çox istəyərik ki, bu düşmənçilik aradan götürülsün. Ancaq tarix göstərir ki, bu gün də onlar mənfur niyyətlərindən əl çəkmir. Həll olunmuş Qarabağ problemini təzədən qaldırmağa çalışırlar. Elə sentyabrın 12-də Zəngəzurdakı təxribatları nəticəsi olaraq qanlı savaşda ordumuz da itki verdi. Amma düşmən daha çox, dəfələrlə çox itkilərə məruz qaldı. Bu, Azərbaycan əsgərinin II Qarabağ savaşından qazandığı döyüş təcrübəsinin nəticəsi idi. Bu günlərdə hərbi xidmətini başa vurub Zəngəzurdakı savaşların iştirakçısı kimi uğurlu döyüş yolu keçib evə qayıdan Zallı Ceyhun Əziz oğlunun canlı şahidliklə danışdıqları mənim ordumuza olan inamımı hədsiz dərəcədə artırdı. Bir daha inandım ki, Azərbaycan əsgəri üçün vətən torpağı müqəddəs bir idealdır. 3200 metr yüksəklikdə Ceyhungilin taboru düşmənlə savaşın ən nadir tarixi səhifələrini yaradıblar. Bir daha erməni vandallarına ağır dərs keçilib. Onlar gərək bu dərslərdən düzgün nəticə çıxarsınlar. Ceyhun komandanlığın fəxri fərmanı ilə gəlib. Onun fəxri fərmanında komandir belə bir cümlə yazıb: "Zallı Ceyhun qəhrəman Azərbaycan döyüşçüsünə verilən hər hansı bir döyüş tapşırığını mərdliklə, qorxmazlıqla yerinə yetirib". Bu, əlbəttə, mənim qəlbimi qürurlandırır.

Bir daha "Qarabağda qiyamət" romanına qayıdaraq yaxşı bildiyim hadisələri də xatırlatmaqla demək istəyirəm ki, yazıçının bu publisistik romanı təkcə bədii təxəyyül məhsulu deyil. Həyata və reallıqlara əsaslandığı üçün tarixi sənəddir. Romandan əlbəyaxa döyüş səhnələrin təsvir edən daha bir parçanı oxucularıma çatdırmaq istərdim: "Komandir Sədini qayalıqların arasında gizlətdi və əynindən çıxartdığı sırıqlısını onun üstünə örtdü. "Qayıdacam, qardaş, bir az döz. Qoy bu çaqqalların paylarını verək. Yoxsa uşaqlar tək qalacaqlar". O, geri çevrilərdə onu nişan alan erməni gördü qayanın arxasından. Tez aşağı əyildi, düşmənin atdığı güllə başının tam üstündən keçdi. İldırım sürətiylə əlini silahına atdı və göz qırpımında düşməni yerə sərdi. "Qudurmayın, sizin payınızı verəcəyik, dostlarımızın heyifini alacayıq sizdən. Buna əmin olun, nə zamandan belə qəhrəman olmusunuz. Bu ad sizə yaraşmır. Olsa-olsa barbarsınız, bu sizə daha çox yaraşır. İndi görərsiniz kimin güclü olduğunu". Dostunun yanından tez aralaşdı, bildi ki, o təhlükəsiz yerdədi.. Bölüyün döyüşçüləri qəhrəmanlıq göstərirdilər. Hamısı böyük ustalıqla döyüşürdü. Demək olar ki, özlərindən üç dəfə çox olan düşmənin nəfəsini kəsmişdilər. Bir neçəsi qaçırdı artıq". 44 günlük savaşın minlərlə belə hadisələrindən birinin təsviridir bu epizod. Ulduz Qasım təkcə qəhrəmanları, şəhid olan Azərbaycan əsgərlərini, yaralanıb döyüşdən çıxan oğulları təqdim etmir bu səhnələrdə. Eyni zamanda dağıdılan, xaraba qoyulan şəhər və kəndlərimizi də diqqətdən kənarda qoymur.

Bu günlərdə Şuşaya səfərim zamanı Azərbaycan əsgərinin hansı keçilməzlikləri arxada qoyaraq Şuşanı fəth etməsinin qeyri-adi mənzərlərini təsəvvürümdə canlandırmağa çalışdım. Əlbəttə, yol boyu xarabazarlığa çevrilmiş olan yurdlarımızın da qisası alınırdı Şuşaya doğru inamlı hərəkətlə. Cəbrayıla - doğma yerlərə səyahətim zamanı gördüyüm xarabalıqlar gözümün içini yandırırdı, sinəmə od qoyurdu. Bizim Xələflidə də düşmən daşı daş üstə qoymayıb. Böyük kitabxananın olduğu kəndimizdəki iki mərtəbəli damdaş evimizdən heç bünövrə də qalmayıb. İgid Azərbaycan əsgəri Sarvan Əmirov döyüş gedə-gedə Xələfli qəbirstanlığında I Qarabağ müharibəsi



şəhidinin - Yusif Musaoğlunun məzarını ziyarət edir. Onun qəbri üzərinə Azərbaycan bayrağı sancır. Bu onu göstərir ki, Sarvan Azərbaycan əsgərinin qəhrəmanlıqda varisliyi qorumaq düşüncəsinə nə qədər sadiqdir. Yaxud Əlfəddin və Şəmşir Həziyev qardaşları Azərbaycan ordusunun yüksək rütbəli zabitləridir. Onlar birbaşa ön xətdə döyüş qəhrəmanlıqları göstəriblər. Şəmşir və Əlfəddin Həziyev qardaşları qəhrəmanlıqlarına görə ali ordenlərlə təltif olunublar. Bu, Xələflinin yetirdiyi oğullardır. Onlar xaraba qalmış kəndimizin tarixi üçün şərəfli səhifələr yazıblar. Beləliklə, "Qarabağda qiyamət" romanının həyatla səsləşən səhifələrini (onu da deyim ki, əsər başdan-başa real həyat səhnələri ilə bağlıdır) çevirərək əsərin sonuna çatmaqdayam. Son səhifələrdə daha bir qəhrəmanın həyat və döyüş yolu təsvir olunur. Söhbət Fərid Ələkbərovdan gedir. O, yüksək rütbəli zabitdir. Əgər canını fikirləşsə idi, öz əsgərləri üçün nümunə ola bilməzdi. Babək İsmayılovun, Qabil və Kamal adlı döyüşçülərin igidlikləri üçün heç bir düşünülmüş resept yoxdur.

Fərid Ələkbərov xarici ölkələrdə təcrübə keçən zabitdir. İstanbulda Kuleli hərbi liseyində təhsil almaq imkanı qazanmışdı. Ankaradakı quru qoşunları məktəbinə daxil olmuşdu. Fərid Ələkbərovun rəhbərlik etdiyi döyüş. Dəstəsi Füzuli, Cəbrayıl, Hadrut istiqamətində və eləcə də Xankəndi istiqamətində döyüşlərdə qəhrəmanlıq göstərir. Son səhifələrdə bir daha biz əsər boyu düşüncəmizə yoldaşlıq etmiş Teyfur Rüstəmovun, Rəhmanın və Bəhruzun, Babək İsmayılovun adları ilə rastlaşırıq. Bu əsgərlərin hər biri həm də əlbəyaxa döyüş igidləridir. Hətta ölümlərindən bir an əvvəl özlərində güc tapıb düşməni məhv edir. Leytenant Mobil Əhmədzadənin 15 nəfərlik dəstəsi ilə mühasirəyə düşmüş döyüşçülərimizin təhlükədən xilas edilməsindəki igidliyi də Azərbaycan əsgərinin ünvanına yazılan tarixi səhifələrdər. Komandir Fərid Ələkbərov Şuşaya hərəkət edən dəstələrin uğurunu təmin edən əməliyyatda son ana qədər mərdlik və igidliklə döyüşü davam etdirir. Və nəhayət, demək olar ki, döyüşün sona çatdığı günlərdə Fərid Ələkbərov həlak olur. 40 yaşlı qəhrəman əbədi olaraq yaddaşımızda cavan qalacaq. Əsərin sonunda müəllif Şuşanın azad olması ilə bağlı düşüncələrini lirik notlara tamamlayır: "Şuşanı almışdı cəngavər əsgərlərimiz. Noyabrın 8-də mədəniyyətimizin beşiyini, dünyaya və Azərbaycana görkəmli insanlar bəxş edən, Qafqazın incisi, dünyada heç bir şəhərlə müqayisə olunmayan bu müqəddəs məkan dərindən nəfəs alırdı. Daş döşəməli qədim küçələrdə, Şuşanı əhatə edən dağlarda, Topxana meşəsində, İsa bulağında hər daş, hər qarış torpaq, sanki, yenidən gəlmişdi dünyaya. Hər dəfə gülümsəyirdi, qaldığı yerdən davam edirdi yaşamağa. Burada qalan, heç zaman bu cənnət məkanı tərk etməyən o incə ruhlar bir-birinə gözaydınlığı verirdi. Qəhrəmanlarımız, sanki igidlikləriylə dünyaya car çəkdilər: Gözün aydın, Azərbaycan! Gözün aydın, ey türk dünyası, qələbə sənindir. Bizim Şuşamız azaddır. Şahid ol, ey dağlar, ey dərələr, ey uçan quşlar, ey bulaqlar, çaylar. Xəbər uçurun İrana, Turana, bütün türk dünyasına, Təbrizə, Dərbəndə - Şuşamız azaddır. Qoy sevinsin türkün uluları, cəngavərləri, başlarını vətən üçün cəllad baltasının altına qoyanlar". Bu həyəcanlı sözləri sakit ovqatla oxumaq mümkün deyil. Həmin günlərdə hamımız sevincimizi göz yaşlarımızla yuyurduq. Azərbaycan əsgəri tarixi zəfər qazanmışdı. Onlarca adı çəkilən qəhrəmanların hamısının ümumi ünvanı kimi deyərdim ki, Şuşanın azad olunması Fərid Ələkbərovların xidməti idi. Bəli, bu təkcə Fəridin adı deyil. Bu yolda çarpışan, vuruşan, can qoyan hər bir Azərbaycan əsgərinin adıdır.

Yeri gəlmişkən, bir epizodu da xatırlatmaq istərdim. Ulduz Qasımın cəbrayıllıları arasında, Biləsuvarda "Qarabağda qiyamət" romanının təqdimatı keçirilirdi. Orada əməkdar jurnalist Tahir Aydınoğlu əsər haqqında məlumat verdi. Fərid Ələkbərovun qəhrəmanlığından ayrıca danışdı və salonda əyləşənlərin arasından qürurlu bir anaya əlini uzadıb "o, Fərid Ələkbərovun anasıdır" dedi. Həmin anlarda mən hər kəsi bir-bir nəzərimdən keçirirdim. Adamlar Fərid Ələkbərovun anasına əfsanəvi bir insan kimi baxırdı. Bəli, həqiqətən bu bir əfsanə idi. Axı o, əfsanəvi qəhrəman Fərid Ələkbərovun anasıdır.

Ulduz Qasım "Qarabağda qiyamət" romanının sonunda bir daha bizim haqq işimizə rəvac verməyən riyakarları da yada salır. Ali Baş Komandanın qələbə xəbərini onlara dəmir yumruğun zərbəsi kimi xatırladır.

Zaman keçəcək, illər ötəcək, "Qarabağda qiyamət" romanı Azərbaycan əsgərinin igidlik pasportu kimi təkzibolunmayan sənəd kimi təkrar-təkrar xatırlanacaq. Şuşanın fəth edilməsi uğrunda döyüş səhnələri müharibə tarixini öyrənənlər üçün ibrətli dərslər kimi yadda qalacaq.

***Əli Rza*** Xələfli
***01.11.2022***